**“Kaspi”.-**2012.-28 mart.-№282.-S.12.

## Tariximizin ən faciəli səhifəsi - Mart soyqırımı

### Daşnak-bolşevik birləşmələrinin türk müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırım kimi qiymətləndirilməlidir

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalıb. Mərhələ-mərhələ gücləndirilən belə qeyri insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilib.

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı Quba şəhəri, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçiriblər. Erməni faşistləri bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək yandırıb viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırıblar. XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmağa başlamış, azərbaycanlılar öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulmuş, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilib. Tarixin hələ tam açılmamış səhifələrindən biri olan bu soyqırım hadisəsi xalqımıza qarşı dəfələrlə törədilmiş kütləvi qətl kimi qiymətləndirilməlidir. Tarixi faktlar təsdiq edir ki, son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş bu soyqırım siyasəti nəticəsində soydaşlarımız qədim Azərbaycan torpağı olan, indi Ermənistan adlandırılan öz doğma torpaqlarından didərgin salınmışlar.

### Mart soyqırımına gedən yol

Şübhəsiz ki, 94 il bundan əvvəl daşnak-bolşevik birləşmələrinin türk müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırım kimi qiymətləndirilməlidir. Tarixdən bəlli olduğu kimi, 1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabının nəticəsində, Stepan Şaumyanın başçılıq etdiyi bolşevik Bakı Soveti Bakı quberniyasında hakimiyyəti ələ keçirdi. Etnik erməni olan və Britaniya hökumətindən milyon qızıl rubl məbləğində ilkin yardım alan Stepan Şaumyan, Bakıda azərbaycanlılara qarşı bolşeviklərlə erməni millətçilərinin əməkdaşlığını təmin edib. Qeyd edək ki, 1918-ci ilin martında Bakıda Qafqaz cəbhəsindən qayıtmış minlərlə rus və erməni əsgəri var idi. Onlar öz silahlarını dəyər-dəyməzinə Şaumyan güruhuna satdılar və hətta onun təşkil etdiyi «Qırmızı qvardiya» ordusuna daxil oldular. 12 minlik ordunun 75%-i ermənilərdən ibarət idi. Martın 30-da döyüşlərə rəhbərlik etmək üçün Şaumyanın başçılığı ilə müdafiə komitəsi yaradıldı. Buraya Çaparidze, Korqanov, Saakyan, Yolçiyan və b. daxil idilər. Mart qırğınının qığılcımı isə 9 mart 1918-ci ildə, Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyevin dəfn mərasimində iştirak etmək üçün, general Talışinskinin başçılıq etdiyi Azərbaycan alayının Bakıya gəlməsi ilə qoyuldu. Məhəmməd Tağıyev Lənkəran şəhərində baş verən ixtilafda rus-erməni silahlı dəstələri tərəfindən qətlə yetirlmişdi və onun dəfn mərasimi 27 mart gününə təyin edilir. Bakıya daxil olarkən general Talışinski və Azərbaycan alayının üzvləri Bakı Soveti tərəfindən həbs altına alındılar, nəticədə şəhərdə yaşayan azərbaycanlılar Sovetə qarşı müqavimət göstərməyə başladılar. Nəticədə baş verən silahlı münaqişə martın 30-dan aprelin 3-də qədər Bakıda davam etmişdi və tarixdə "1918-ci ilin Mart Günləri" kimi düşdü. 3 gün ərzində Bakı talan edildi, qan dəryasında boğuldu. N.Nərimanov həmin günləri belə təsvir edir: «Müsəlman, hətta bolşevik olsaydı, ona aman vermirdilər. Daşnaklar deyirdilər: Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olması kifayətdir». Aprelin 1-də qırğının dayandırılması barədə sənədin qəbul edilməsinə baxmayaraq, cinayətkarlıq aprelin 2-si axşama qədər davam etdi. Bu soyqırımı zamanı təkcə Bakıda 12-14 min nəfər günahsız soydaşımız qanına qəltan edildi. Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunub.

Qırğınlarda A.Mikoyanın başçılıq etdiyi «Qırmızı qvardiya» dəstələri də fəal iştirak ediblər. Hətta İçərişəhərə hücum zamanı Mikoyan yaralanmışdı da. «İnqilabı əks-inqilabdan müdafiə» adı ilə çıxış edən bu quldur dəstələri, memarlıq abidələrindən olan İsmailiyyəni yandırmış, «Açıq söz», «Kaspi», «Baku» və b. Qəzet və jurnalların

redaksiyalarını dağıtmış, Təzəpir məscidinə böyük ziyan vurmuşdular. Şamaxı, Quba, Göyçay, Lənkəran, Qarabağ, Naxçıvan bölgələrində milli qırğın törətmişdilər. Faktlar sübut edir ki, Şamaxıda 8-12 min, bütövlükdə qəzanın 72 kəndində 40 minə qədər insan qətlə yetirilmiş, 13 məhəllə məscidi və 800 illik yaşı olan cümə məscidi dağıdılmışdı. 1918-ci ilin aprel-may aylarında Qubada daha kütləvi qırğınlar törədilib. Elə birinci günü ermənilər 1000-ə qədər adamı Qubada məhv ediblər. Deyilənə görə, Qubada 16 min nəfərə qədər insan qırılmışdı. Ancaq, təəssüf ki, burada da ölənlərin sayı 7-8 min nəfər göstərilir. Quba şəhər qlavası Hamazaspın yanına gedərək öldürülənlərin dəfn olunmasına icazə istəyirlər. O, rədd edərək deyir: «Mən bura gəlməmişəm ki, sovet hakimiyyətini möhkəmləndirəm, gəlmişəm ki, sizdən öldürülən ermənilərin intiqamını alam». Erməni daşnak hərbi dəstələrinin törətdikləri milli qırğın uzun bir dövr ərzində sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda və əks-inqilab üzərində böyük qələbə kimi qələmə verilmişdir. Lakin əsl həqiqəti gizlətməyənlər də olmuşdur. Bolşeviklər arasında da həmin faciəni sovet hakimiyyəti üçün qara ləkə hesab edənlər tapılmışdı.

**Azərbaycanın baş bilən, qabaqcıl övladları gözlənilən təhlükəni irəlicədən duyurdular**

Qeyd etmək lazımdır ki, Azərbaycanın başbilən, qabaqcıl övladları gözlənilən təhlükəni irəlicədən duyurdular. Belə ki, Cənubi Qafqazda xristian əhali məqsədyönlü şəkildə silahlandırıldı. Bakıda mart qırğını ərəfəsində rus milli şurası Cənubi Qafqazın xristian əhalisinə müraciət edərək martın 11-dən 18-dək, 19-25 yaş arasında olan rus gənclərinin hərbi səfərbərliyə alındığını bildirdi. Bunun üçün Bakıda, Gəncədə, Zəngəzurda, Lənkəranda müsəlman hərbi hissələri yaradıldı. Bakıda kadet məktəbində müsəlman zabitləri hazırlamağa başladılar. Ancaq düşmən qüvvələr bu işlərə müxtəlif əngəllər törədir və onu ləngidirdilər. Çar Rusiyası dağıldıqdan sonra həmişə məkrli olan erməni siyasətçiləri ingilispərəst siyasət apararaq onlardan müəyyən dəstək alırdılar. Adətən, dəyişən şəraitə tez bir zamanda uyğunlaşan erməni daşnak faşistləri mövqelərini bu dəfə də nümayiş etdirdilər. Ona görə də Nəriman Nərimanov yazırdı ki, «Böyük Hayastan» xülyası ilə vurnuxan ermənilər hər cür maska geyməyə, hər sifətə düşməyə daim hazırdılar».

Şaumyan Lənkəran, Hacıqabul, Göyçay və digər rayonlarda sovet hakimiyyəti qurmaq bəhanəsi ilə bu yerlərə xeyli sayda daşnak qüvvələri göndərdi. Lənkəranda adamları məsciddə ibadət zamanı qətlə yetiriblər. Həmin yerdə öldürülənlərin sayı 5 min nəfəri ötüb keçmişdi. 1918-ci ilin mart-aprelində İrəvan quberniyasında 211 kənd, Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, Qars əyalətində 92 kənd yerlə yeksan olunub, əhali qətlə yetirilib. 1918-ci ilin yayından daşnaklar İrəvan quberniyasında azərbaycanlıları qırmağa başladılar. Zəngibasar, Qəmərli, Vedibasardan tutmuş, Şərur və Naxçıvana qədər qırğın törətmək Andranikə həvalə edilmişdi. General Dro Dərələyəz elində, general Sirkov Göyçə mahalında, general Njde Zəngəzurda əhalini qırıb, yurdlarını viran edib, etnik təmizləmə siyasətini aparırdılar. Təkcə Zəngəzurda 10 mindən artıq azərbaycanlı qətlə yetirilmiş, 50 mini qaçqın düşmüşdür. Mahiyyətcə milli soyqırımı olan "Mart döyüşləri" Bakı sovetinə qısa müddət ərzində vəziyyətə nəzarət etmək imkanı versə də, əhali arasında sovetlərə qarşı kin-küdurəti daha da artırdı, Azərbaycanda sovetləşmə ideyasına zərbə vurdu. Bolşeviklərin böyük dövlətçilik siyasətinin labüd nəticəsi olan soyqırım Azərbaycanda milli istiqlala qarşı açıq-aydın sui-qəsd idi. Kütləvi soyqırım istiqlalın aparıcı qüvvəsi olan "Müsavat"ın milli dövlətçilik siyasət ideyalarına güclü təsir göstərdi, onu Rusiya imperiyasını demokratik-federativ respublikaya çevirmək, burada millətlərə muxtariyyət hüququ vermək ideyasından imtina etməyə, bundan sonra tam dövlət müstəqilliyi xəttini əsas götürməyə, "Müstəqil Azərbaycan" ideyasını irəli sürməyə məcbur etdi.

Ermənilər meyidləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər

Mart soyqırımından az sonra ermənilər bu hadisələri bolşeviklərlə müsəlmanlar arasında cərəyan edən hakimiyyət mübarizəsi kimi mətbuatda yaydılar. 1919-cu ilin yayında ABŞ tərəfindən Bakıya göndərilən general Harborda təqdim edilən sənəddə erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını inkar edir. Baqrat Bakıda hadisələr zamanı öldürülən 1000 nəfərdən 300-nün erməni və rus, 700-nün müsəlman olduğunu iddia edirdi. Bu soyqırım təkcə Bakıyla əhatəli deyildi. Aprel ayının ilk ongünlüyündən etibarən Bakıda törədilən bu qətliamlar eynilə Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər bölgələrdə də edildi. Mart qırğınları haqqında müstəqil tədqiqatçı Kulqe yazır: «Ermənilər musəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub, sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər». Kulqe ermənilər tərəfindən üzü divara çevrilərək itlərə gəmirdilən azərbaycanlıların şəkillərini də çəkib. Bu faktlar erməni daşnak qaniçənlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir. 1918-ci ildə erməni bandaları insanlara qarşı vəhşi amansızlıq etdikləri kimi,

mədəniyyət abidələrini və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir. Bir faktı da qeyd edək ki, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülsə də, onların çoxunun meyidləri tapılmayıb. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyidləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər.

Azərbaycan xalqını məhv etməyi qarşıya məqsəd qoyan ermənilər Bakıdan sonra Şamaxıda qırğınları davam etdirirlər. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət materiallar toplanıb. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuş, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Şamaxı qəzasının 53 kəndində ermənilər 8077 azərbaycanlını qətlə yetiriblər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olub. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,8 milyon manat olub. Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. S.Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi ki, təki Azərbaycan deyilən dövlət yaranmasın.

## Quba qırğınları

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törədiblər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Kelovandilidən başqa, bolşevik Stiqua da olmuşdu. Onun dəstəsində min əsgər olub. Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində üst-üstə 16 mindən çox insan məhv edilib. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir. Daşnak-bolşevik birləşmələri nəinki Quba qəzasında, hətta Cənubi Dağıstanda, Bakıdan Dərbəndə kimi böyük bir ərazidə müsəlmanların soyqırımını həyata keçirmək niyyətində idilər. Ümumiyyətlə, erməni vəhşilikləri nəticəsində XX əsrin birinci rübündə 2 milyon azərbaycanlı qətlə yetirilmiş, yaralanmış və deportasiya edilib.

Anar İsgəndərov: Azərbaycanın bütün bölgələrində, eləcə də Qərbi Azərbaycanda və qırğınların təşkilatçısı erməni kilsəsi idi

Yeri gəlmişkən, tarix elmləri doktoru, professor Anar İsgəndərov 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı 1918-ci il soyqırımının əsas sifarişçisinin kim olduğu və bu soyqırımın həyata keçirilməsində hansı qüvvələrin iştirak etməsi ilə bağlı çox maraqlı faktlar ortaya qoyub. Onun sözlərinə görə, Azərbaycanın bütün bölgələrində, həm Cənubi və Şimali Azərbaycanda, eləcə də Qərbi Azərbaycanda və Bakı şəhərində bütün qırğınların təşkilatçısı erməni kilsəsi idi. Yəni fitvanı erməni kilsəsi verirdi və bu qırğında, soyqırımında bütün erməni əhalisi iştirak edirdi. Yəni erməni keşişi də, erməni mühəndisi də, erməni həkimi də, erməni burjuaziyası da... Əslində türk-müsəlman əhalisinə düşmən münasibət bütün ermənilərin ürəyindən və beynindən keçirdi. Ona görə də bu soyqırımını, Almaniyada olan faşistlərin yəhudilərə qarşı həyata keçirdiyi soyqırımından fərqlidir. O zaman ittiham olunan yalnız faşist partiyası idi, alman xalqı deyildi. Amma ermənilərin Azərbaycan xalqına, türk dünyasına düşmən münasibəti olduğu üçün bu qırğında bütün ermənilər iştirak edirdi. Ümumi 1918-1920-ci illəri götürsək, Qərbi, Cənubi və Şimali Azərbaycan ərazisində öldürülən əhalinin sayı 300 mindən artıqdır. Ancaq belə götürsək, Bakı şəhərində 12 min, Qubada 16 min, Şamaxıda 16 mindən artıq, Lənkəranda 2 min, Hacıqabulda 3 min, Salyanda 2 min əhali soyqırıma məruz qalıb. Yəni erməni hərbi birləşmələri Azərbaycanın hansı bölgələrinə daxil olurdularsa təbii ki, o ərazini qan içində qoyurdular. Naxçıvanda da bu faciə daha amansızlığı ilə diqqəti cəlb edir. Çünki əhalinin xalqın bu mübarizədə iştirakı çox çətinliklər törədirdi".

## 1918-ci ilin iyulun 15-dən, 1920-ci ilin əvvəllərinədək 36 cild 5 min vərəqlik sənəd toplanıb

Professor bu soyqırımla bağlı cümhuriyyət dövründə cinayət işi başlandığına da toxunub. 1918-ci il iyulun 15-də Fətəli Xan Xoyskinin sədrliyi ilə Azərbaycan hökumətinin iclası keçirildi. Bu iclasda Ələkbər bəy Xasməmmədovun rəhbərliyi ilə "fövqəladə təhqiqat" komissiyası yaradıldı. Belə qərara alınıb ki, fövqəladə təhqiqat komissiyası yaradılsın, bu komissiya ermənilərin Azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi soyqırımı faktik sənədlər əsasında tərtib etsin və onu Avropa dövlətlərinə göndərsin. Həm də bir neçə dildə. Qərar qəbul

olunub ki, bu sənədlər Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərinə tərcümə olunsun. Və doğurdan da qısa müddət ərzində, yəni 1918-ci ilin iyulun 15-dən, 1920-ci ilin əvvəllərinədək 36 cild 5 min vərəqlik sənəd toplandı. Bu sənədlər tərtib olunarkən Azərbaycanın ayrı-ayrı bölgələri, hansı bölgələr ki, soyqrıma məruz qalmışdı, orda olan əhali danışdırılıb, izahatlar alınıb, sənədlər toplanıb, əmlakı talan olunubsa, onunla bağlı arayış alınıb, evi yandırılıbsa, şəkilləri çəkdirildi. Bu komissiyada azərbaycanlılarla yanaşı, ruslar, ukraynalılar, polyaklar və hətta Azərbaycanda yaşayan almanlar da yer alırdı. Bu komissiya çox ədalətli komissiya idi və işini də vicdanla gördü. Bu gün Azərbaycanın dövlət arxivində, fövqəladə təhqiqat komissiyasının 36 cilddən ibarət sənədləri var. Bu sənədlərin hər birində, Azərbaycanın ayrı-ayrı bölgələrində, ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımla bağlı tarixi sənədlər var. Amma 1920-ci ilin aprelində rusların Azərbaycanı işğal etməsi hər şeyə son qoydu. Yəni 1920-ci ilin aprelindən sonra o sənədlər üzə çıxarılmadı. Yalnız 1991-ci ildə Azərbaycanın yenidən müstəqillik əldə etməsindən sonra, Azərbaycan tarixçiləri yenidən o sənədlərə müraciət etdilər və beləliklə də ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımın açıq-aydın mənzərəsi üzə çıxdı. Yəni əslində, ermənilərin iddia etdiyi kimi doğurdan da 1915-ci ilin aprelində ermənilərə qarşı heç bir soyqırım həyata keçirilməmiş, əslində ermənilər 1918-ci ilin mart və ondan sonrakı aylarda Azərbaycanlı əhaliyə qarşı soyqırım həyata keçirməsi məlum oldu. Bu faktdır, bundan heç kim qaça bilməz. Çünki bununla bağlı olan sənədlər o qədər çoxdur ki, o sənədlərin hər biri faktik sənəd olduğuna, həm də o dövrdə tərtib olunduğuna görə, ermənilərin hansı vəhşiliklə soyqırım etdiyini təfərrüatı ilə əks etdirir. Bu sənədlərdə ermənilərin əhaliyə qarşı hansı üsullardan istifadə etdikləri, necə zülm verdikləri öz əksini tapıb: "Mən çox təəssüf edirəm ki, biz hələlik arxivimizdə olan o sənədləri tam dövriyyəyə cəlb edə bilməmişik. Ehtiyac var ki, həmin sənədlər o zaman Azərbaycan Xalq Cümhuriyyətinin arzuladığı kimi dünyanın bir çox dillərinə tərcümə edilsin və yayılsın. Bununla yanaşı bizim soyqırımla bağlı muzeyə ehtiyacımız var. Azəbaycana kim hansı niyyətlə gəlirsə gəlsin, biz onların yolunu o soyqırım muzeyindən salmalıyıq. Ən nəhayət, ermənilər yüz ildir ki, yalançı təbliğat aparır. Biz isə, 1991-ci ildən, həm də torpaqlarımızı itirəndən, 1 milyon qaçqınımız olandan sonra bu mübarizəni aparırıq. Mənə elə gəlir ki, bu mübarizəni, təbliğatı daha da genişləndirməyə ehtiyac var. Və sonra da, təbii ki bu öz nəticəsini verməlidir. Bu gün kifayət qədər təbliğat aparılır. Tarixdə belə bir fikir var, hər hansı təbliğata nöqtə qoyulmur. Təbliğat, mübarizə o vaxta qədər aparılır ki, nəticə olsun. Tarixdə hər bir hadisəyə qiymət, nəticəyə görə verilir. Bu gün hələ biz itirilmiş torpaqlarımızı azad edə bilməmişiksə, 1 milyon qaçqın, köçkünümüz varsa, dünya ikili siyasət yeritməklə bizim haqlı hüquqlarımızı bizə qaytarmaqda acizlik göstərirsə, gözləri görmürsə, qulaqları eşitmirsə, bizim borcumuz ondan ibarətdir ki, təbliğatımızı bir az da artıraq, gücləndirək. Mənə elə gəlir ki, həm də Türkiyə tarixçiləri ilə Azərbaycan tarixçilərinin birliyini təmin etməklə biz sonda istədiyimizə nail ola biləcəyik. May ayında Azərbaycan Xalq Cümhuriyyəti özgə bir şəhərdə, özgə bir dövlətin paytaxtında yəni Tiflisdə elan olunmuşdu. Amma AXC-nin Gəncədən Bakıya gəlişini, Şaumyan başda olmaqla Bakı Soveti, Sentrokaspi və erməni qüvvələrinin məhv edilməsində Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz-İslam ordusunun əvəzsiz xidməti olub.

Bir faktı qeyd edim ki, Nuru Paşa Gəncəyə daxil olarkən o zaman Azərbaycan hökumətinin qoşunlarının sayı 600 nəfərdən ibarət idi. 600 nəfərlik dəstə ilə heç Gencədən Göyçaya qədər də getmək olmazdı. Ancaq Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz-İslam ordusu bu mübarizəni təşkil etdi. Azərbaycanın azadlığı uğrunda mübarizədə 4 min şəhid verdi. Və ən nəhayət Bakı şəhərini azad etdi. Və 2 gündən sonra Azərbaycan hökuməti Bakı şəhərinə köçdü. Azərbaycan Xalq Cümhuriyyətinin yaşamasında Qafqaz-İslam ordusunun əvəzsiz xidməti və rolu olub. Bunu heç kim inkar edə bilməz. Azərbaycanın bütün bölgələrində o cümlədən Bakıda baş verən hadisələrin kulminasiyası 31 martdır. 1918-1920-ci illərdə də martın 31-i anım, qətl günü kimi qeyd olunub. 1991-ci ildən sonra da təbii ki, həmin günlə bağlı müəyyən fikrilər var idi və 1998-ci il martın 26-da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Azərbaycanlıların soyqırımı günü kimi 31 martı müəyyənləşdirdi. Və bu tarixi qanunauyğunluqdur, tarixi həqiqətdir. Çünki bu soyqırımlar üçün bir gün seçmək lazım idi, o gün də 1919-1920-ci illərdə 31 mart seçildiyi üçün təbii ki, 1998-ci il martın 26–da martın 31-i Azərbaycanlıların soyqırımı günü kimi qəbul olundu.

Sonda onu da qeyd edək ki, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə ümummilli lider Heydər Əliyev 27 mart 1998-ci il «31 mart Azərbaycanlıların Soyqırımı haqqında» fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırım günü elan edilib. 1998-ci ildən bəri respublikamızda 31 mart hər il Azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir. Bu hadisələri, onların dərslərini unutmağa isə haqqımız yoxdur.

**Azər NURİYEV**